


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

12 mart 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 10 (3773)


# Güclü lider, qətiyyətli siyasət



## Azərbaycan dünyaya inkişaf modeli nümayiş etdirir

**Azərbaycanın əldə etdiyi uğurların təməlində daxili sabitlik və milli həmrəylik dayanır. Sabitlik olmadan nə böyük infrastruktur layihələri, nə genişmiqyaslı iqtisadi islahatlar, nə də Qarabağın yenidən qurulması olmazdı.**

Azərbaycan bu gün bütün dünyaya nümayiş etdirir ki, milli maraqlara əsaslanan daxili sabitlik həm iqtisadi tərəqqinin, həm də beynəlxalq etimadın əsas dayağıdır. Müasir dünya nizamında dövlətlərin gücü yalnız iqtisadi imkanları və hərbi potensialı ilə deyil, həm də daxildə sabit mühit yaratmaq və sülhü qorumaq bacarığı ilə müəyyən olunur. Geosiyasi qarşıdurmaların, müharibələrin və daxili gərginliklərin hökm sürdüyü bir dövrdə Azərbaycan təhlükəsiz, sabit və sürətlə inkişaf edən dövlət kimi seçilir.

Milli maraqlara əsaslanan balanslı xarici siyasət Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş kimi qəbul olunmasına şərait yaradıb. Bu gün ölkəmiz Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm nəqliyyat qovşaqlarından biri kimi tanınır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas mərkəzlərindən biri kimi Azərbaycanın qlobal tədarük zəncirindəki rolu getdikcə artır. Vaşinqton Sammitində Zəngəzur dəhlizinin açılması ilə bağlı əldə edilən razılaşma regionun iqtisadi gələcəyinə mühüm töhfə verir və kommunikasiyaların bərpası ümumi rifahın genişlənməsinə xidmət edir.

Enerji təhlükəsizliyi sahəsində Azərbaycan artıq Avropanın enerji xəritəsində xüsusi çəkisi olan ölkəyə çevrilib. Hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycan qazından istifadə edir və bu fakt rəsmi Bakının qlobal enerji arxitekturasındakı mövqeyini aydın göstərir. Ölkəmizi cəlbedici edən amillər təkcə zəngin enerji ehtiyatları və əlverişli geostrateji mövqeyi ilə məhdudlaşmır. Sabit və proqnozlaşdırılan mühit Azərbaycanı investorlar üçün etibarlı məkan kimi təqdim edir. Məhz bu mühit ABŞ-dan Çinə qədər dünyanın iri şirkətləri ilə strateji əməkdaşlığa geniş imkanlar yaradıb.

Bakı sülh və əməkdaşlıq ideyasını yalnız bəyanatlarla deyil, konkret təşəbbüslər və layihələrlə dəstəkləyir. Dialoq və qarşılıqlı anlaşma dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu yanaşma göstərir ki, siyasi iradə və məsuliyyətli qərarlar vasitəsilə regional gərginliklərin azaldılması mümkündür.

Dövlət üçün əsas prioritet vətəndaşın təhlükəsizliyi və ölkədə ictimai asayişin qorunmasıdır. Regional qeyri-müəyyənliklərin artdığı bir dövrdə sərhədlərin möhkəm qorunması xarici təhdidlərin qarşısını alan ən etibarlı mexanizmlərdən biridir. Azərbaycanın əldə etdiyi uğurların təməlində də məhz daxili sabitlik və milli həmrəylik dayanır. Sabit mühit olmadan nə böyük infrastruktur layihələri, nə də genişmiqyaslı iqtisadi islahatlar davamlı nəticə verə bilər.

Azərbaycan sübut edib ki, mürəkkəb geosiyasi şəraitdə belə müstəqil siyasət yürütmək, milli maraqları qorumaq və vətəndaşların təhlükəsizliyini təmin etmək mümkündür. Bu gün ölkəmiz təkcə öz sərhədləri daxilində deyil, daha geniş regionda sabitlik məkanı kimi qəbul olunur. Bakıda və ölkənin digər şəhərlərində keçirilən beynəlxalq tədbirlər, qlobal problemlərin müzakirəsi üçün yaradılan dialoq platformaları Azərbaycanın artan nüfuzunu aydın şəkildə nümayiş etdirir. Güclü Azərbaycan regional təhlükəsizliyin təmin olunmasında da mühüm rol oynayır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən siyasət ölkəni gələcək çağırışlara qarşı daha dayanıqlı edir və Azərbaycanı müasir dünyanın sabit və güclü dövlətləri sırasında möhkəmləndirir.

# DİN Daxili Qoşunlarının şəxsi heyətinə



**Ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi altında dövlətin etibarlı dayaqlarından biri kimi formalaşmış Daxili Qoşunlar ölkəmizdə sabitliyin təmin edilməsində mühüm rol oynamış, dövlətçilik ənənələrinə sadiqliyi ilə seçilmişdir.**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən ardıcıl tədbirlərlə ötən 34 ildə qoşunların infrastrukturunun müasirləşdirilməsində, döyüş hazırlığının və maddi-texniki bazasının gücləndirilməsində böyük inkişafa nail olunmuş, hərbi qulluqçularımızın peşəkarlığı, operativliyi, mənəvi-psixoloji durumu və sosial müdafiəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Onların Vətən müharibəsi və antiterror əməliyyatı zamanı göstərdiyi rəşadət və fədakarlıq nümunələri isə xalqa, dövlətə və hərbi anda sadiqliyini bir daha təsdiq etmişdir.**

**Xüsusi qeyd olunmalıdır ki, xidmətdə, o cümlədən döyüş əməliyyatlarında fərqlənmiş yüzlərlə hərbi qulluqçunun Möhtərəm Prezident tərəfindən dövlət təltiflərinə layiq görülməsi bütövlükdə Daxili Qoşunların fəaliyyətinə verilən ali dəyərin bariz ifadəsidir.**

**Əminəm ki, qanunla müəyyən edilmiş vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, vətəndaşlarımızın dinc həyatının, asayişin və təhlükəsizliyin keşiyində əzmlə dayanacaqsınız.**

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının növbəti ildönümü münasibətilə sizi, hörmətli veteranlarımızı, respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçularımızın ailə üzvlərini təbrik edir, möhkəm can sağlığı, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram!**

**Vilayət Eyvazov**
***Azərbaycan Respublikasının daxili işlər naziri***
***general-polkovnik***

## Prezidentlər razılaşdılar

### Təmaslar davam etdiriləcək

Martın 10-da Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl-Şaraa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Söhbət zamanı Yaxın Şərq regionunda yaranmış gərginlikdən narahatlıq ifadə olunub, region dövlətlərinin təhlükəsizliyinə və sabitliyinə mənfi təsir göstərə biləcək addımların qarşısının alınmasının zəruriliyi bildirilib. Telefon danışığı zamanı ikitərəfli əlaqələrə toxunulub, təmasların davam etdirilməsi barədə razılıq əldə edilib.

## Qardaş dəstəyi

### Dövlət başçısı raket hücumunu qınayıb

Martın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək Türkiyəyə qarşı həyata keçirilmiş raket hücumunu qınayıb, qardaş Türkiyə xalqına dəstəyini ifadə edib.

Rəcəb Tayyib Ərdoğan telefon zənginə və göstərilən mövqeyə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

## İrandan minnətdarlıq zəngi

### Naxçıvanla bağlı insident araşdırılacaq

Martın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edən İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian dövlətimizin başçısının İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verməsinə, həmçinin İrana humanitar yardım göstərmək niyyətinə görə minnətdarlığını bildirib. Həmçinin

Naxçıvanla bağlı insidentin araşdırılacağını vurğulayıb. Dövlətimizin başçısı da bu hadisənin araşdırılmasının vacibliyini qeyd edib.

## Azərbaycana beynəlxalq dəstək

### Ölkəmizlə həmrəylik nümayiş etdirilir

İranın Naxçıvan Muxtar Respublikasına pilotsuz uçuş aparatları ilə həyata keçirdiyi hücumdan sonra bir sıra dövlətlərin rəhbərləri Azərbaycanla həmrəylik nümayiş etdirərək Prezident İlham Əliyevə telefon zəngləri ediblər. Telefon danışığı zamanı həmin ölkələrin rəhbərləri hücumu qınayıb və Azərbaycanın yanında olduqlarını bildiriblər.

Bu hadisə ilə bağlı Türkiyə, Gürcüstan, Pakistan, Serbiya, Albaniya, Liviya, Efiopiya, Macarıstan, Fransa və Finlandiyanın dövlət başçıları zəng ediblər.

Bununla yanaşı, Azərbaycan Prezidenti sosial şəbəkə hesabında İranın Naxçıvana qarşı hücumlarını qınadıqlarına və göstərilən dəstəyə görə Qazaxıstan, Slovakiya, Çexiya və Albaniyaya minnətdarlığını ifadə edib.


**Beynəlxalq əməkdaşlıq nümunəsi**........2
**Sol zolağı boş saxla**............................3
**Erkən nikah cinayətdir**........................3
**Cinayət və cəmiyyət**............................4

# Respublika Xəbərləri

### Yeni hakimlər and içib

Prezident İlham Əliyevin Sərəncamı ilə birinci instansiya məhkəmələrinə təyinat alan 34 hakimin Ali Məhkəmədə andiçmə mərasimi olub. Bununla bağlı Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib. Hakim vəzifələrinə yeni təyin olunmuş şəxslərə xüsusi geyim forması təqdim olunub.

### Azərbaycandan humanitar yardım

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq İran İslam Respublikasına humanitar yardım göndərilib. Yardım Fövqəladə Hallar Nazirliyinin avtomobilləri vasitəsilə yola salınıb. Humanitar yardımın tərkibinə 30 tona yaxın qida məhsulları daxildir.

### Vətəndaşlarımız təxliyə olunub

Yaxın Şərqdə baş verən hadisələr səbəbindən Birləşmiş Ərəb Əmirliklərində qalmış Azərbaycan vətəndaşları Bakıya təxliyə edilib. Xarici İşlər Nazirliyinin məlumatına görə, 195 Azərbaycan vətəndaşı, 1 Türkiyə vətəndaşı və 2 Azərbaycanda yaşayış icazəsi olan xarici ölkə vətəndaşı geri gətirilib. Təxliyə Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib.

### Yüklərin daşınması bərpa olundu

Azərbaycan və İran arasında bütün növ nəqliyyat vasitələri üçün yüklərin daşınması bərpa olunub. Bu barədə Nazirlər Kabinetindən məlumat verilib. Bildirilib ki, Azərbaycanla İran arasında dövlət sərhədindən bütün növ nəqliyyat vasitələri üçün yüklərin daşınması, o cümlədən tranzit məqsədilə giriş-çıxış martın 9-dan etibarən bərpa olunub.

### Belə SMS-lərə inanmayın

Sosial şəbəkələrdə vətəndaşlara nəqliyyat vasitələri üzrə inzibati cərimə borcu olduğu barədə SMS bildirişləri göndərilməklə saxta internet səhifələrinə yönləndirən reklam və məlumatlar yayılır. Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib ki, belə səhifələrdən biri də "asanpayex.cc/az" ünvanıdır. Həmin internet səhifəsinin dövlət qurumları və rəsmi ödəniş sistemləri ilə heç bir əlaqəsi yoxdur, vətəndaşlar bu kimi saxta səhifələrə etibar etməsinlər.

### Velosipedçilərin təhlükəsizliyi təmin edilir

Paytaxtda velosipedçilərin təhlükəsizliyinin təmin edilməsi və mikromobilliyin inkişafı məqsədilə Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən daha 5 kəsişmədə svetoforlara velosiped bölmələri quraşdırılıb. İndiyədək paytaxt yollarında yerləşən 54 yolayrıcındakı svetoforlara 136 ədəd velosiped bölməsi quraşdırılaraq istifadəyə verilib. Bu istiqamətdə işlər davam etdirilir.

### Xocalıya növbəti köç

Xocalı rayonunun Təzəbinə və Seyidbəyli kəndlərinə köç həyata keçirilib. Təzəbinə kəndinə 51 nəfərdən ibarət 9 ailə, Seyidbəyli kəndinə isə 16 nəfərdən ibarət 4 ailə qayıdıb. Qayıdan ailələrə yeni evlərin açarları təqdim edilib. Hər iki kənddə sakinlər elektrik enerjisi, təbii qaz və içməli su ilə tam təmin olunublar. Ağdam şəhərinə köç edən 346 nəfərdən ibarət 90 ailəyə də yeni mənzillərinin açarları təqdim olunub.

### Orta Dəhliz üzrə saziş hazırlanır

Azərbaycan və Qazaxıstan Orta Dəhlizin inkişafı üzrə əməkdaşlıq haqqında hökumətlərarası saziş imzalamağa hazırlaşır. Məlumata görə, saziş layihəsinin hazırlanması artıq başa çatdırılıb. Sənədin məqsədi yüklərin Xəzər dənizi vasitəsilə Türkiyə və Avropa istiqamətində tranzitinin genişləndirilməsidir. Bundan əlavə, ticarət donanmasının inkişafı çərçivəsində "Baku Shipyard" zavodunda iki konteyner gəmisinin inşası planlaşdırılır.

### Qarabağda kənd təsərrüfatı dirçəlir

Laçın rayonunun Zabux kəndində əkin məqsədilə torpaqların güzəştli icarəyə verilməsi üçün son müraciətlərin qəbulu başlayıb. Torpaq sahələri minimum 5 hektar olmaqla əkin üçün nəzərdə tutulub və əsasən buğda, arpa, noxud, kartof və yem bitkilərinin əkilməsi planlaşdırılır. Torpaqlar işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı torpaqlarının güzəştli icarəyə verilməsi qaydalarına uyğun təqdim olunacaq.

### Bu kəndlərin adları dəyişir

Quba rayonunun üç kəndinin adının dəyişdirilməsi təklif olunur. Bu məsələ Milli Məclisin Toponimiya komissiyasının iclasında müzakirə edilib. Təklifə əsasən, Vladimirovka kəndinin Elbir, Alekseyevka kəndinin Çinarlı, Timiryazev kəndinin isə Bəhrəli adlandırılması nəzərdə tutulur.

# DİN-in Daxili Qoşunları – 34 ilin təntənəsi

## O, dövlətə sadiq, sabitliyə dayaqdır!

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunları artıq 34 ildir ki, xalqımıza və dövlətimizə sədaqətlə xidmət edir. Bu illər ərzində şəxsi heyət üzərinə düşən vəzifələri məsuliyyət, intizam və peşəkarlıqla yerinə yetirərək ictimai asayişin və sabitliyin qorunmasına mühüm töhfələr verib.**









Yarandığı gündən etibarən Daxili Qoşunlar ölkəmizin sabitliyi və vətəndaşların rifahı naminə əzmkarlıq nümayiş etdirib. Qoşunlara göstərilən diqqət və qayğı nəticəsində onun inkişaf və yüksəliş yolunun möhkəm təməli qoyulub. Xüsusilə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Daxili Qoşunlar müasir maddi-texniki baza və yüksək döyüş hazırlığına malik çevik hərbi quruma çevrilib.

### Ümummilli liderin etimadı...

Ümummilli liderin 1995-ci il 9 mart tarixli Fərmanına əsasən 12 mart - Daxili Qoşunlar Günü kimi təsis edilib. Bu tarix Daxili Qoşunların şərəfli xidmət yoluna verilən yüksək qiymətin və Qoşunlara olan etimadın ifadəsidir. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərə ilk dəfə 1992-ci il martın 12-də başlayıb. Birinci Qarabağ müharibəsi dövründə hərbi qulluqçularımızın odlovlu səngərlərdə göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz izlər buraxıb. Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüz uğrunda döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 682 nəfər şəhid olub, 4 nəfər itkin düşüb və 1179 nəfər yaralanıb. Daxili Qoşunların 9 nəfər hərbi qulluqçusu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

### Daxili Qoşunlar yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malikdir

Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra isə uzunmüddətli atəşkəs dövründə qoşunların xidməti fəaliyyəti ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına, silahlı cinayətkarların zərərsizləşdirilməsinə, kütləvi tədbirlər zamanı asayişin qorunmasına yönəlib. Qabaqcıl təcrübə öyrənilərək müasir dövrün çağırış və təhdidlərinə uyğun islahatlar aparılıb. Daxili Qoşunların tərkibində Hərbi İnstitut, təlim mərkəzləri, helikopter eskadrilyası yaradılıb. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ali diqqət və qayğısı nəticəsində Daxili Qoşunların fəaliyyəti daha da təkmilləşdirilib, döyüş qabiliyyəti möhkəmləndirilib, infrastruktur yenilənib. Müasir silah və texnika ilə təchizat gücləndirilib, şəxsi heyətin xidmət və məişət şəraiti, eləcə də sosial rifahı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.

Vətən müharibəsi zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq erməni işğalçıları üzərində Böyük Qələbənin qazanılmasına layiqli töhfələr veriblər. Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər isə yaralanıb. Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusuna "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

### Hərbçilərimiz döyüşlərdə yeni qəhrəmanlıq salnaməsi yazdılar

2023-cü il sentyabrın 19-20-də Azərbaycan Respublikasının Qarabağ iqtisadi zonasında Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı qarşıya qoyulan vəzifələr qısa müddətdə və dəqiqliklə icra olunub.

Məhz illər boyu formalaşmış döyüş hazırlığı, intizam və əməliyyat təcrübəsi bu tədbirlərin həm qısa müddətdə, həm də effektiv şəkildə başa çatdırılmasını təmin edib. Nəticədə bölgədə separatizmə son qoyulub. Antiterror tədbirləri zamanı igidlik və şücaət göstərən Daxili Qoşunların 12 hərbi qulluqçusu şəhid olub, 24 nəfər isə yaralanaraq müxtəlif dərəcəli xəsarətlər alıb. Bu gün də hərbi qulluqçularımız Qarabağ və Şərqi Zəngəzurda polis əməkdaşları ilə birgə xidməti tapşırıqların öhdəsindən bacarıqla gəlir, Böyük Qayıdış proqramının sürətlənməsi üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri tam həcmdə yerinə yetirirlər. 34 il ərzində formalaşan zəngin xidmət təcrübəsi, möhkəm nizam-intizam, yüksək döyüş hazırlığı və vətənə sarsılmaz bağlılıq bu gün də Daxili Qoşunların fəaliyyətinin əsas dayağını təşkil edir.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, daxili sabitliyin sadiq keşikçisi olub və bundan sonra da dövlətə və xalqa sədaqət prinsiplərinə sadiq qalaraq üzərinə düşən vəzifələri eyni məsuliyyət, peşəkarlıq və qətiyyətlə yerinə yetirəcək, ölkəmizin sabitliyinə və ictimai asayişin qorunmasına etibarlı töhfə verməyə davam edəcək.

# Beynəlxalq əməkdaşlıq nümunəsi

## İnterpolun Milli Mərkəzi Bürosu qlobal təhlükəsizliyə töhfə verir

**Müasir dünyada cinayətkarlığın sərhədləri genişlənərək terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi kimi təhlükəli fəaliyyətlərlə beynəlxalq miqyas alıb. Belə şəraitdə dövlətlərin hüquq-mühafizə orqanları arasında sıx əməkdaşlıq qlobal təhlükəsizliyin təmin olunmasının əsas şərtlərindən biri hesab olunur. Bu əməkdaşlığın ən mühüm platforması isə İnterpoldur.**

Onlarla ölkəni bir araya gətirən İnterpol müxtəlif dövlətlərin polis qurumları arasında operativ məlumat mübadiləsini təmin etməklə beynəlxalq axtarışların təşkili və cinayətkarların ədalət mühakiməsindən yayınmasının qarşısının alınmasında mühüm rol oynayır. Məlum olduğu kimi hər bir üzv ölkədə fəaliyyət göstərən Milli Mərkəzi bürolar beynəlxalq polis əməkdaşlığının yerli səviyyədə koordinasiya mərkəzi kimi çıxış edir. Azərbaycan da bu qlobal təhlükəsizlik sistemində Daxili İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərən İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə iştirak edir.

Milli Mərkəzi Büro 2025-ci il ərzində də xidmətini polisin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını rəhbər tutaraq davam etdirib. Büro beynəlxalq polis əməkdaşlığının genişləndirilməsi, cinayətkarlıqla mübarizədə məlumat mübadiləsinin sürətləndirilməsi və hüquq-mühafizə orqanları arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirib.

Hesabat dövründə İnterpolun Baş Katibliyindən, üzv ölkələrdə fəaliyyət göstərən milli bürolardan, respublikanın hüquq-mühafizə orqanlarından və digər qurumlardan daxil olan çoxsaylı sorğular operativ şəkildə icraata götürülüb. Bu müraciətlər aidiyyəti üzrə araşdırılaraq nəticələri barədə müvafiq qurumlara və təşəbbüskarlara məlumat verilib. Belə mexanizm beynəlxalq əməkdaşlığın effektivliyini artırmaqla yanaşı, cinayət işlərinin araşdırılmasına da mühüm dəstək verir.

Hazırda yüzlərlə şəxs barəsində beynəlxalq axtarış tapşırıqları icraatdadır. Onların böyük hissəsi Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarılır, digər bir qismi isə xarici dövlətlərin müraciətləri əsasında müəyyən edilir.

Ötən il respublikanın hüquq-mühafizə orqanlarından Milli Mərkəzi Büroya daxil olan axtarış tapşırıqlarından 185 nəfər barəsində İnterpol kanalları ilə beynəlxalq axtarış elan edilib. Bu istiqamətdə aparılan işlər nəticəsində onlarla təqsirləndirilən şəxsin yeri müəyyən olunub. Təkcə bu fakt beynəlxalq cinayətkarlığın miqyasını göstərməklə yanaşı, qlobal əməkdaşlığın əhəmiyyətini də bir daha təsdiqləyir.

İnterpol xətti ilə aparılan tədbirlərin mühüm nəticələrindən biri də cinayət törədərək xaricə qaçan şəxslərin Azərbaycana ekstradisiyasıdır. Hesabat dövründə 48 nəfər təqsirləndirilən şəxs Azərbaycana təhvil verilib. Həmçinin 21 nəfər təqsirləndirilən şəxs axtarışın təşəbbüskarı olan ölkələrə ekstradisiya edilib. Bu proses Rusiya, Türkiyə, Gürcüstan, Bolqarıstan, Ukrayna, Bosniya və Herseqovina, Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri, Albaniya, Almaniya, Hindistan, Pakistan, Moldova və Polşa kimi dövlətlərlə həyata keçirilib.

Beynəlxalq cinayətkarlıqla mübarizədə terrorçuluq və narkotik vasitələrin qanunsuz dövriyyəsi xüsusi təhlükə yaradan istiqamətlərdəndir. Bu sahələrdə məlumat mübadiləsi və operativ əməkdaşlıq böyük əhəmiyyət daşıyır. Ötən il terrorçuluqla bağlı onlarla sorğu, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı isə çoxsaylı müraciətlər Milli Mərkəzi Büro tərəfindən araşdırılıb.

Azərbaycanın hüquq-mühafizə orqanları ilə xarici ölkələrin müvafiq qurumları arasında əlaqələrin inkişafında fəal rol oynayan Milli Mərkəzi Büro qarşılıqlı informasiya mübadiləsi, operativ sorğuların icrası və birgə tədbirlərin təşkili vasitəsilə cinayətkarlıqla mübarizənin səmərəliliyini artırır.

Bu gün qloballaşan dünyada təhlükəsizlik məsələləri yalnız milli səviyyədə həll edilə bilməz. Cinayətkar şəbəkələrin beynəlxalq miqyası geniş əməkdaşlıq tələb edir. İnterpol məhz belə bir əməkdaşlıq platformasıı kimi dövlətləri bir araya gətirir.

Azərbaycanın İnterpol sistemində fəal iştirakı ölkənin təhlükəsizlik strategiyasının mühüm hissəsidir. Milli Mərkəzi Büronun fəaliyyəti göstərir ki, beynəlxalq əməkdaşlıq cinayətkarlıqla mübarizədə ən təsirli vasitələrdəndir.

*R.Mehtiyev*

# Maariflənmiş gənclik sağlam gələcəkdir

## Polis silsilə tədbirləri ölkəboyu davam etdirir





Polisin təşkilatçılığı ilə narkomaniya, erkən nikah, internetdən təhlükəsiz istifadə mövzularında maarifləndirmə tədbirləri davam edir. Paytaxtın Yasamal, Nəsimi, Nizami, Qaradağ, eləcə də Hacıqabul, Ucar və Salyan rayonlarında yerləşən orta məktəblərdə "Narkomaniyaya yox deyək!" mövzusunda görüşlər təşkil olunub.



Polis əməkdaşları çıxışlarında yeniyetmələr arasında sağlam həyat tərzinin formalaşdırılmasının əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, idmana marağın artırılması, asudə vaxtın səmərəli təşkili və ictimai fəallıq zərərli vərdişlərdən uzaq durmaq üçün mühüm amillərdir. Gənclərin düzgün seçim etməsi üçün ailə, məktəb və cəmiyyətin birgə səylərinin vacibliyi diqqətə çatdırılıb.

Analoji tədbirlər paytaxtın Yasamal rayonunda yerləşən 336 saylı və Qaradağ rayonunda yerləşən 319 saylı tam orta məktəblərdə də keçirilib. Görüşlər zamanı yol hərəkəti qaydalarına əməl olunmasının vacibliyi, sosial şəbəkələrdən düzgün və təhlükəsiz istifadə mövzuları ətrafında da fikir mübadiləsi aparılıb.

Qazax Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Daş Salahlı kənd 1 saylı tam orta məktəbində, eləcə də Masallı və Biləsuvar rayonlarının ümumtəhsil müəssisələrində maarifləndirici tədbirlər baş tutub.

Görüşlər interaktiv müzakirə şəraitində keçirilib. Şagirdləri maraqlandıran suallar cavablandırılıb, onların fikirləri dinlənilib və zərərli vərdişlərin doğura biləcəyi ağır nəticələr barədə ətraflı məlumat verilib.

# Sol zolağı boş saxla

## Sürücülər hansı halda qaydaları pozurlar?

Paytaxt yollarında tez-tez rast gəlinən qayda pozuntularından biri sürücülərin sol zolağı səbəbsiz şəkildə tutmasıdır. Halbuki "Yol hərəkəti haqqında" Qanunun 49-cu maddəsinə əsasən nəqliyyat vasitələrinin sürücüləri normal hərəkət zamanı vəziyyətdən asılı olaraq yolun hərəkət hissəsinin sağ kənarı ilə hərəkət etməlidirlər.

Qanunun tələbinə görə yaşayış məntəqələrindən kənarda, eləcə də yaşayış məntəqələrində 5.1 "Avtomagistral" və ya 5.3 "Avtomobil yolu" nişanları ilə işarələnmiş yollarda hərəkət istiqamətində sağ zolaq boş olduqda sol zolaqla hərəkət etmək qadağandır. Buna baxmayaraq, paytaxt yollarında sağ zolaq boş olduğu halda sol zolaqda hərəkət edən sürücülərə tez-tez rast gəlinir.

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən bildirilib ki, nəqliyyat vasitələrinin bütün hərəkət zolaqlarını tutduğu intensiv hərəkət vaxtı bəzi sürücülərin faraların uzaq işıqlarını ardıcıl şəkildə yandırıb-söndürərək yol tələb etməsi, nəqliyyat vasitəsini yüksək sürətlə idarə etməsi və düzgün ara məsafəsi saxlamaması halları da müşahidə olunur. Belə vəziyyətlər daha çox paytaxtın üç və daha çox hərəkət zolağı olan əsas magistrallarında Zığ - Aeroport şosesində, Bakı–Sumqayıt avtomobil yolunda və s. qeydə alınır.

Mənzil başına daha tez çatacaqlarını düşünən bu cür sürücülər radarlara yaxınlaşarkən qəfil sürəti azaltmaqla yanaşı, düzgün ara məsafəsi saxlamadıqları üçün yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olurlar. Onların bu davranışı həmin zolaqda hərəkət edən digər sürücülərdə də təşviş yaradır və nəticədə bəzi sürücülər qəfil manevr etməyə məcbur qalırlar.

Bir çox sürücü isə yanlış olaraq hesab edir ki, sol zolaqda yüksək sürətlə hərəkət etdikləri üçün digər sürücülər onlara mütləq yol verməlidir. Halbuki qanunvericiliyə əsasən yalnız operativ nəqliyyat vasitələri üstün keçid hüququna malikdir. Bu nəqliyyat vasitələri yaxınlaşarkən zolağın boşaldılması tələb olunur və onlar üstün hərəkət rejimindən istifadə edərkən xüsusi işıq və səs siqnallarını qoşmalıdırlar. Digər sürücülər isə belə bir üstünlük hüququna malik deyillər.

Qanunun tələblərinə görə intensiv hərəkət vaxtı sürücülər yalnız sola və ya sağa dönmək, ötməyə hazırlaşmaq, hərəkəti düz istiqamətdə davam etdirmək, dayanacağa və ya duracağa çıxmaq üçün olduqları hərəkət zolağını dəyişə bilərlər.

Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi sürücülərə yollarda hərəkət edərkən sağ zolaqlara üstünlük verməyi, zəruri hallar üçün sol zolaqları boş saxlamağı tövsiyə edir. Bu qaydalara əməl olunması yollarda təhlükəsizliyin təmin edilməsinə və nəqliyyat axınının daha səmərəli təşkilinə xidmət edir.

*F.Məmmədova*

# Erkən nikah cinayətdir

## Ötən il 90 erkən evliliyin qarşısı alınıb

**Ölkəmizdə ötən ilin iyulundan qüvvəyə minən yeni qanunvericiliyə əsasən erkən evlilik halları ilə bağlı konkret hüquqi məsuliyyətin yeni müddəaları müəyyən edildi. Bununla da belə hala yol verən şəxsin əməlinə Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən hüquqi qiymət verilir.**




Hazırda yetkinlik yaşına çatmayan şəxsi erkən nikaha məcbur edənlər, belə şəxslər üçün nişan və toy mərasimi keçirən obyekt sahibləri, eləcə də bu evliliyə legitimlik qazandırmağa çalışan digər şəxslər qanun qarşısında məsuliyyət daşıyırlar. Əgər yetkinlik yaşına çatmayan şəxs 16 yaşdan aşağıdırsa, bu hal artıq cinayət hesab olunur.

Qanunun tələblərinin icrasında polisin qətiyyəti və operativ müdaxilə imkanları da özünü aydın şəkildə göstərir. Polis əməkdaşlarının aidiyyəti dövlət qurumları ilə birgə mütəmadi şəkildə həyata keçirdikləri kompleks tədbirlər nəticəsində erkən evlilik hallarının azalmasına nail olunub. Buna baxmayaraq bəzi hallarda bu cür nikahlara təəssüflər olsun ki, hələ də rast gəlinir.

Ötən il polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə ölkə üzrə 90 erkən evlilik halının qarşısı alınıb. Qeyd olunan faktlardan 28-i barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanılıb. Bununla yanaşı 5 fakt üzrə 16 yaşına çatmayan şəxslə evliliyə dair sövdələşməyə daxil olma, 41 fakt üzrə isə yetkinlik yaşına çatmayan şəxslərin erkən evlilik mərasimlərinin keçirilməsi ilə əlaqədar İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan tədbirlər görülüb.

Bu rəqəmlər əhali arasında hüquqi maarifləndirmənin vacibliyinə bir daha diqqət çəkir. Bu səbəbdən polis əməkdaşları tərəfindən erkən nikahın fəsadları və məişət zorakılığına qarşı mübarizə tədbirləri ardıcıl şəkildə davam etdirilir. Polis əməkdaşları tərəfindən ölkənin şəhər və rayonlarında ictimai yerlərdə keçirilən görüşlər, aparılan izahat işlərinin miqyası artırılıb.

Eyni zamanda təhsil müəssisələrində məktəblilərlə narkomaniya mövzusunda keçirilən görüşlərdə erkən nikah hallarının yaratdığı sosial və hüquqi fəsadlar barədə də məlumat verilir, gənclərlə maarifləndirici söhbətlər aparılır. Məişət zorakılığı ilə bağlı müdafiə mexanizmləri, müraciət qaydaları və zərərçəkmiş şəxslər üçün mövcud yardım imkanları vətəndaşlara izah edilir.

Qeyd edək ki, qanuna əsasən nikah yaşı həm qadınlar, həm də kişilər üçün 18 yaş müəyyən olunub. Övladlarını erkən nikaha sövq etmək niyyətində olan valideynlər bu cür qanunsuz əməllərdən çəkinməli, övladlarının təhsilinə, gələcəyinə və sağlam inkişafına məsuliyyətlə yanaşmalıdırlar.

*L.Babayeva*

# Çağırılmamış "qonaq"

## Mənzillərə oğurluq məqsədilə girməyə çalışıb

Paytaxtın Nərimanov, Nəsimi və Yasamal rayonlarında yaşayış binalarında mənzillərin qapılarını yoxlayan və boş evlərə oğurluq niyyəti ilə daxil olmağa cəhdlər barədə polisə məlumat daxil olub.

Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 41 yaşlı M.Xurşudov saxlanılıb. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxs binalarda açıq qapı aşkar etdikdə evlərə daxil olaraq oğurluq etməyi planlaşdırıb.

Şübhəli şəxsin digər bir nəfərlə mənzillərin qapılarını yoxladığı, oğurluq niyyəti ilə etdiyi hərəkətlər, həmçinin onların mənzillərin giriş qapılarının fotoşəkillərini çəkmələri təhlükəsizlik kameraları vasitəsilə də lentə alınıb. Nərimanov RPİ-də şübhəli şəxslə bağlı hüquqi məsuliyyət tədbirləri davam etdirilir. M.Xurşudovun digər analoji əməllərdə iştirak edib-etmədiyi yoxlanılır.

Polis vətəndaşlara müraciət edərək bir daha tövsiyə edir ki, mənzillərin giriş qapılarını açıq saxlamasınlar, yaşayış binalarının girişlərinə və bloklara naməlum şəxslərin daxil olmasına diqqət yetirsinlər, şəxsi əmlakın təhlükəsizliyinə ciddi yanaşsınlar. Şübhəli hallarla qarşılaşdıqda isə dərhal polisə məlumat versinlər.

# Cibgirlər istintaqda

## Sərnişinləri hədəf seçən oğrular saxlanılıblar



Martın 4-də metro stansiyalarının birində oğurluq hadisəsi qeydə alınıb. Belə ki, bir qadın polisə müraciət edərək qatarda olarkən çantasından sənəd və bank kartları olan pul kisəsinin, eləcə də mobil telefonunun oğurlandığını bildirib.

Metropolitendə Polis İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 39 yaşlı E.Qasımov müəyyən olunaraq saxlanılıb.

Polis həmçinin paytaxtda marşrut avtobusunda cibgirlik etməkdə şübhəli bilinən şəxsi də ifşa edib. Bakı şəhərində fəaliyyət göstərən marşrut avtobuslarından birində sərnişinə məxsus içərisində 200 manat olan pul kisəsinin oğurlanması barədə polisə məlumat daxil olub.

Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə cibgirlik etməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 44 yaşlı C.Abdullazadə müəyyən edilərək saxlanılıb. Araşdırmalar zamanı məlum olub ki, həmin şəxsin avtobusda törətdiyi cibgirlik əməli təhlükəsizlik kameraları vasitəsilə lentə alınıb.

Hər iki faktla bağlı araşdırmalar davam etdirilir.

Polis vətəndaşlara tövsiyə edir ki, ictimai nəqliyyatda olarkən diqqətli olsunlar, şəxsi əşyalarını nəzarətdə saxlasınlar və sıxlıq olan yerlərdə ehtiyatlı davransınlar. Bu kimi hallarla qarşılaşdıqda və ya şübhəli şəxslər gördükdə dərhal polisə məlumat vermələri xahiş edilir.

# Baş tutmayan "alver"

## Narkotik satışının qarşısı alınıb

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə əməliyyatlar davam etdirilir.

Paytaxt ərazisində keçirilən növbəti tədbirlər zamanı Fərid Əhmədov, tanışı Pünhan Cəlilov, Taleh Sadıqov və Ruslan Hüseynli saxlanılıblar. Onlardan ümumilikdə 43 kiloqram 500 qram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana aşkarlanıb. Saxlanılanların narkotikləri pul qazanmaq məqsədilə müxtəlif ünvanlara yerləşdirməyi planlaşdırdıqları məlum olub.

Lerik Rayon Polis Şöbəsinin əməkdaşlarının narkotiklərin satışı və qanunsuz dövriyyəsinə qarşı keçirdikləri əməliyyat tədbirləri nəticəsində isə 32 yaşlı Qələmşah Qədimov saxlanılıb.

Həmin şəxsdən 20 kiloqram marixuana aşkarlanaraq götürülüb. Q.Qədimovun Lerik rayonu ərazisində əldə etdiyi həmin narkotik vasitəni satış məqsədilə müəyyən olunmuş ünvanlara çatdırmaq üçün istintaq tərəfindən araşdırılan İran vətəndaşı ilə anlaşdığı müəyyən edilib.

Sabirabadda 14 kiloqram narkotik vasitə aşkarlanıb. Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində narkotiklərin qanunsuz dövriyyəsini təşkil etməkdə şübhəli bilinən 25 yaşlı A.Kərəmova saxlanılıb. Ondan 14 kiloqramdan artıq narkotik vasitə olan marixuana aşkarlanıb. Faktla bağlı cinayət işi başlanıb, saxlanılan şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

Faktlarla bağlı cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Yeni zaman, yeni polis

## Müasir üsullar təhlükəsizliyə xidmət edir

**Tarix boyu dövlətlərin və cəmiyyətlərin təhlükəsizliyinin təmin olunmasında polis orqanları mühüm rol oynayıb. Hələ qədim dövrlərdən başlayaraq ictimai asayişin qorunması üçün müxtəlif nəzarət mexanizmləri yaradılmışdır. Lakin müasir polis institutunun formalaşması daha çox son iki əsrə təsadüf edir.**



İlk dövrlərdə polis əməkdaşlarının əsas fəaliyyət vasitələri müşahidə, məlumat toplama və şahid ifadələrinə əsaslanırdı. Cinayətlərin araşdırılması uzun vaxt aparır, bir çox hallarda sübut bazasının zəif olması istintaq prosesini çətinləşdirirdi. Bununla belə, həmin dövrün hüquq-mühafizə əməkdaşları mövcud imkanlardan istifadə edərək cinayətkarlığa qarşı mübarizə aparır, cəmiyyətin təhlükəsizliyinin təmin olunmasına çalışırdılar.

Zaman keçdikcə texnologiyanın inkişafı polis fəaliyyətinə də öz təsirini göstərdi. Yeni elmi nailiyyətlər və texniki vasitələr hüquq-mühafizə orqanlarının işini daha səmərəli və operativ etdi. Tarixi faktlar sübut edir ki, hər bir yeni nəsil polis əməkdaşı əvvəlki dövrlərin təcrübəsini mənimsəməklə yanaşı, müasir üsulları tətbiq etməklə cinayətkarlığa qarşı mübarizəni daha effektiv qurmağa nail olmuşdur.

### Kriminalistikada elmi metodlar tətbiq edilir

Polis fəaliyyətində ən mühüm yeniliklərdən biri kriminalistika elminin inkişafı ilə bağlıdır. Barmaq izi üsulunun tətbiqi cinayətlərin açılmasında inqilabi dəyişiklik yaratdı. Bu metod vasitəsilə şübhəli şəxslərin identifikasiyası daha dəqiq və etibarlı şəkildə aparılmağa başladı.

Sonralar ballistik ekspertiza, məhkəmə-tibbi araşdırmalar və digər elmi üsullar istintaq prosesinin ayrılmaz hissəsinə çevrildi. Bu metodlar sayəsində hadisə yerlərində əldə olunan maddi sübutlar daha dəqiq analiz olunur və cinayətlərin açılması üçün möhkəm sübut bazası formalaşdırılır.

Kriminalistika texnologiyaları polis əməkdaşlarının peşəkar fəaliyyətini yeni mərhələyə yüksəltdi. Müasir laboratoriyalar, ekspertiza mərkəzləri və elmi tədqiqatlar hüquq-mühafizə orqanlarının fəaliyyətində mühüm rol oynayır və cinayətlərin açılmasında yüksək nəticələr əldə olunmasına şərait yaradır.

### Rəqəmsal texnologiyalar və müasir polis

Son onilliklərdə informasiya texnologiyalarının sürətli inkişafı polis fəaliyyətində də yeni imkanlar yaratmışdır. Elektron məlumat bazaları, videomüşahidə sistemləri, avtomatlaşdırılmış axtarış mexanizmləri və analitik proqramlar hüquq-mühafizə orqanlarının operativ fəaliyyətini xeyli gücləndirmişdir.

Bu gün bir çox cinayətlərin açılmasında videokameralar vasitəsilə əldə edilən görüntülər mühüm rol oynayır. Şəhərlərdə quraşdırılan müşahidə sistemləri həm cinayətlərin qarşısının alınmasına, həm də baş vermiş hadisələrin operativ şəkildə araşdırılmasına kömək edir.

Eyni zamanda rəqəmsal texnologiyalar vasitəsilə məlumatların sürətli mübadiləsi təmin olunur. Bu isə müxtəlif qurumlar arasında koordinasiyanın gücləndirilməsinə və cinayətkarlığa qarşı mübarizədə daha effektiv nəticələrin əldə olunmasına imkan verir.

### Yeni şərtlər peşəkarlıq və məsuliyyət tələb edir

Texnologiya nə qədər inkişaf etsə də, polis fəaliyyətində əsas amillərdən biri insan amili və peşəkarlıqdır. Müasir polis əməkdaşları yalnız texniki vasitələrdən istifadə etməklə kifayətlənmir, eyni zamanda hüquqi biliklərini, etik davranış prinsiplərini və peşə bacarıqlarını daim təkmilləşdirirlər.

Yeni nəsil polis əməkdaşları müasir texnologiyalardan istifadə bacarığına malik, analitik düşüncəyə sahib və cəmiyyətlə sıx əməkdaşlıq edən peşəkar kadrlar kimi formalaşır. Onların əsas məqsədi ictimai asayişin qorunması, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, eləcə də cinayətkarlığa qarşı effektiv mübarizənin təmin edilməsidir.

Tarix göstərir ki, polis orqanları zamanın tələblərinə uyğun şəkildə daim yenilənir və inkişaf edir. Hər yeni nəsil əvvəlki təcrübəyə əsaslanaraq daha müasir üsullar tətbiq edir və nəticədə cəmiyyətin təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir.

*Aytən Tahirova*

# Polis əməkdaşı ölkə çempionudur

## Ağırlıqqaldırmada rəqiblərini üstələyib




Şüvəlan qəsəbəsində yerləşən Ağırlıqqaldırma Mərkəzində pauerliftinq və benç-press üzrə Azərbaycan Çempionatı keçirilib.

Yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı Əli Əsgərov uğurlu nəticə göstərərək çempion adına layiq görülüb. O, 93 kq çəki dərəcəsində çıxış edərək 190 kiloqram ağırlığı qaldırıb və rəqiblərini geridə qoyaraq qızıl medala sahib olub.

Bu nəticə ilə növbəti dəfə Azərbaycan çempionu olan Əli Əsgərova muxtar respublikada pauerliftinq idman növünün inkişafına verdiyi töhfələrə görə təşəkkürnamə təqdim edilib.

# Cinayət və cəmiyyət

## Dünyanın ən təhlükəli cinayətkarları və onların tutulma hekayələri

Cinayətkarlıq tarixi insan cəmiyyəti ilə bərabər mövcud olub. Dünyanın müxtəlif yerlərində törədilən ağır cinayətlər insanları heyrətə salmış, hüquq-mühafizə orqanlarını isə daha səmərəli işləməyə vadar etmişdir. Dünyada tarix boyu ən təhlükəli cinayətkarlar sadəcə qanunları pozmamış, həm də böyük ictimai qorxu yaratmışlar. Onların tutulma hekayələri isə bir çox hallarda detektiv romanlarını xatırladır.

### Al Kapone – Amerikanın əfsanəvi qanqsteri

1920-ci illərdə ABŞ-da Al Kapone böyük bir mafiya imperiyasına rəhbərlik edirdi. Çikaqoda qanunsuz spirt satışından tutmuş quldurluğa qədər bir çox cinayətə imza atmışdı. ABŞ hüquq-mühafizə orqanları onu uzun müddət izləyərək toplanmış dəlillər və hüquqi prosedurlar vasitəsilə ədalətə gətirdi. Nəticədə Al Kapone vergidən yayınmaq ittihamı ilə hüquqi sistem çərçivəsində məhkəmə qarşısına çıxarıldı və müvafiq cəza aldı. Onun hekayəsi göstərir ki, qanun çərçivəsində peşəkar istintaq hər zaman nəticə verir.

### Pablo Eskobar: narkoimperatorun sonu

Kolumbiyada narkotik kartellərinin lideri Pablo Eskobar 1980–1990-cı illərdə dünyanı qorxudan cinayətkar idi. O, böyük sərvəti və özəl ordusu ilə Kolumbiya hökumətinə qarşı çıxırdı. Eskobar illərlə qaçarkən hüquq-mühafizə orqanlarını çaşdırmışdı. Xüsusi əməliyyatlar və kəşfiyyat nəticəsində Medellin şəhərində gizləndiyi evdə hüquq-mühafizə orqanları tərəfindən aşkar edildi və keçirilən əməliyyat zamanı öldürüldü. Onun hekayəsi göstərir ki, heç bir cinayətkar sonsuza qədər qaça bilməz.

### Ted Bandi – amerikalı qatil

Ted Bandi 1970-ci illərdə ABŞ-da bir çox gənc qadını qətlə yetirmişdi. O, cazibədar və inandırıcı görünüşü ilə polis tərəfindən uzun müddət tutulmamışdı. Lakin Bandinin davranışlarındakı nüanslar və istintaq zamanı toplanan dəlillər nəticəsində o, nəhayət, ədalətə təslim edildi. Bandinin hekayəsi hüquq-mühafizə orqanlarının diqqət və təcrübəsinin insan həyatını necə qoruya biləcəyini göstərir.

### Çarlz Mensen – qrup lideri və cinayət planlayıcısı

1960-cı illərin sonunda ABŞ-də Çarlz Mensen kiçik bir qrup insanı idarə edərək bir sıra qətllər törətdi. Onun planlaşdırdığı cinayətlər böyük diqqət çəkdi və media tərəfindən geniş işıqlandırıldı. Lakin hüquq-mühafizə orqanları Mensen və onun ətrafındakı qrup üzvlərini detallı istintaq və şahid ifadələri nəticəsində tutdular. Bu hekayə göstərir ki, həm fiziki, həm də psixoloji manipulyasiya ilə törədilən cinayətlərin arxasında ciddi istintaq dayanmalıdır.

### Con Dillincer – amerikalı bank quldurı

1930-cu illərdə ABŞ-də fəaliyyət göstərən Con Dillincer çoxsaylı bank quldurluqları ilə tanınırdı. O, hətta polis tərəfindən təqib edilərkən də ictimaiyyət arasında populyar idi. Dillincerin saxlanılması üçün xüsusi polis əməliyyatları həyata keçirildi və sonunda o, Çikaqoda keçirilən əməliyyat zamanı hüquq-mühafizə orqanları tərəfindən zərərsizləşdirildi. Onun hekayəsi qanuni əməliyyatların planlı şəkildə həyata keçirilməsinin vacibliyini göstərir.

### Yaponiyanın ən təhlükəli mafiya liderləri

Yaponiyada Yakuza təşkilatları uzun illər ölkədə cinayət fəaliyyətlərini davam etdirmişdi. Onların rəhbərləri qanunsuz əməliyyatlar, quldurluq və şantajla məşğul idilər. Yakuza liderlərinin tutulması isə xüsusi polis bölmələrinin uzun və təhlükəli




əməliyyatları nəticəsində mümkün olmuşdur.

Bu təhlükəli cinayətkarların hekayələri göstərir ki, heç bir cinayətkar sonsuza qədər cəzasız qala bilməz. Hüquq-mühafizə orqanlarının təcrübəsi, istintaq metodları və innovativ texnologiyalar cinayətlərin ifşasında mühüm rol oynayır. Hər bir hadisə həm hüquqi, həm də psixoloji aspektdən öyrədici nümunədir.

Bu hekayələr həm qorxuducu, həm də maraqlıdır. Onların törətdiyi cinayətlər insan həyatına ciddi ziyan vurmuş, lakin tutulmaları hüquq-mühafizə orqanlarının səmərəliliyini göstərmişdir. Ədalət gec-tez öz yerini tapır. Cinayətkarlar üçün qaçış uzun ola bilər, amma nəticədə ədalət qələbə çalır.

Bu prinsip dünyanın istənilən ölkəsi üçün keçərlidir. Elə ölkəmizdə də ağır cinayətlər törədib cəzasız qalacaqlarını düşünənlər ola bilər, lakin həm dünya, həm də elə öz təcrübəmiz göstərir ki, heç bir cinayət cəzasız qalmır.

*Aytən Tahirova*

# Hüquqlarımızı tanıyaq

## Konstitusiyamız bizə əsas hüquq və azadlıqlarımızı verir




Hər bir vətəndaş öz hüquqlarını bilməli və onları qorumağı bacarmalıdır. Hüquqlarımızın əsas mənbəyi isə Azərbaycan Respublikasının Konstitusiyasıdır. 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən bu sənəd müstəqil dövlətimizin hüquqi təməlini təşkil edir. Konstitusiya insan və vətəndaş hüquqlarını ali dəyər kimi tanıyır və onların müdafiəsini dövlətin əsas vəzifəsi kimi müəyyənləşdirir. Sənəddə hər kəsin qanun qarşısında bərabər olduğu açıq şəkildə təsbit olunub. Bu prinsip ədalətli cəmiyyətin qurulmasının əsas şərtidir.

Konstitusiya hər bir şəxsin yaşamaq, azadlıq və təhlükəsizlik hüququnu qoruyur. Vətəndaşların söz və fikir azadlığı da bu hüquqlar sırasındadır. Hər kəs öz düşüncəsini sərbəst ifadə etmək və məlumat almaq hüququna malikdir.

Eyni zamanda təhsil almaq hüququ dövlət tərəfindən təmin olunur. Sosial təminat və səhiyyə hüquqları da Konstitusiyada öz əksini tapıb. Bu müddəalar sosial dövlət prinsipinin göstəricisidir.

Konstitusiya seçmək və seçilmək hüququnu da vətəndaşlara verir. Bu, insanların dövlət idarəçiliyində iştirakını təmin edir. Mülkiyyət hüququnun qorunması iqtisadi azadlığın əsasını təşkil edir. Heç kəs məhkəmə qərarı olmadan hüquqlarından məhrum edilə bilməz. Hüquqlarımızı bilmək həm də məsuliyyətlərimizi dərk etmək deməkdir. Çünki hüquq və vəzifələr bir-birini tamamlayır. Hüquqlarını tanıyan vətəndaş daha güclü, daha fəal və daha məsuliyyətli olur.

Konstitusiyamızın diqqət çəkən maddələrindən biri təqsirsizlik prezumpsiyasının təsbit olunduğu 63-cü maddədir. Orada göstərilir ki, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən şəxsin təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa belə, onun təqsirli bilinməsinə yol verilmir. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə edilməməlidir.

*A.Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik